**Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Konfederasiyası Hökuməti arasında məhəllə su nasosu stansiyaları üçün maliyyə yardımı haqqında Sazişi imzalamaq səlahiyyətinin verilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

1. Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Konfederasiyası Hökuməti arasında məhəllə su nasosu stansiyaları üçün maliyyə yardımı haqqında Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalanması səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə İsveçrə Konfederasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev**

**Bakı şəhəri, 13 oktyabr 2000-ci il**

**№ 544**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 oktyabr, № 10.- S.4290.**